Исраил
Ибрагимов

# УЗОРЫ ЛЮБВИ

SEVGİ NAXIŞLARI

Перевод с азербайджанского
Виталия Молчанова

Исраил
Ибрагимов

# УЗОРЫ ЛЮБВИ

SEVGİ NAXIŞLARI

Перевод с азербайджанского
Виталия Молчанова

у никитских
ворот

Москва
2017

УДК
ББК
И 15

*Книга издана при финансовой поддержке*
*Министерства культуры Российской Федерации*

**Ибрагимов, Исраил Ибрагим оглы**
И15 Узоры любви. Sevgi naxişlari. / Исраил Ибрагимов. Перевод с азербайджанского Виталия Молчанова. М.: ИПО «У Никитских ворот», 2016. – 60 с., ил.

ISBN 978-5-00095-

© Ибрагимов И.И., 2017
© Оформление. ИПО «У Никитских ворот», 2017

## OGLUM

Sorsalar, dünyanın neçə yaşı var?
Əsrlər qoparar hay-həşir, oğlum!
Arif ol, həyatda çoxlunaşı var,
Bir də mələk donlu mürdəşir, oğlum!

Dəqiqə saatla getməyir yola,
Nəzər sal təqvimdə qısa fevrala,
Düz gəlmir ayları, dünya bir ola,
Yer də öz oxunda ilişir, oğlum!

Sanma həyatını əbədi məhvər,
İnsan kainata gəlib də gedər,
Bu haqsız dünyaya doğulan bəşər
Fələklə laylada deyişir,oğlum!

Görürsən, bu əsrin havası başqa,
Gülşəndə güllərin səfası başqa,
İndiki qızların vəfası başqa,
Məhəbbbət şöhrətə dəyişir, oğlum!

İsrail, haqqı yaz, özünü qoru,
Sinəni yandırar ilk eşqin qoru,
Ağlasan, getməsin gözünün nuru,
Dostlar da olubdur günəşir, oğlum!

## XƏBƏRSİZ

Sən bir mələksən sərvi boy, bel incə,
Dolan bu cahanı qəmsiz, kədərsiz.
Rastlaşdıq insafsız... Yenə dalınca
Bir cüt göz ağladı səndən xəbərsiz.

Endikcə addım-addım pillələri,
Göynədi qəlbimdə hicranın yerı.
Indi anladim o qumral zülfləri,
Bir naşı sığallar məndən xəbərsiz.

Bir nağılmış xoş günlərin coxu da,
Könül gizli yana, göz yaş axıda,
Cəfa çəkib bəslədiyim bağı da,
Xəlvət dolanıram gendən, xəbərsiz.

Həsrətin yıxsa da məni yatağa,
Hələ də dözürəm çəkdiyin dağa
Necə qıydın, mən yatdığım yastığa
Bir özgə baş qoya yandan, xəbərsiz.

Nə tez çatdı ömrün ayrılıq çağı,
Bədbəxt taleyimin səndədir ağı,
Qəsd edib, sinəmə vurduğun dağı
Gecələr oxşaram, gündən xəbərsiz.

İsrail, haqsızlıq qəddini əyər,
Heyf, zəhmətindən qalmadı əsər,
Bir gün də qapını qocalıq döyər,
Saçında yaşayan dəndən xəbərsiz.



## OLAYDIM

Səfası səninlə getdi ömrümün,
Arxamca uzanan əlin olaydım.
Külək daradıqca ipək saçların,
Saçlarından qopan telin olaydım.

Sən ey unudulmaz son səadətim,
Ürəyimdə tabım, dizdə taqətim,
Yandırsa qəlbini gizli həsrətim,
Yanağından axan selin olaydım.

Hanı qucaq-qucaq gül daşıdığım,
Düzüb siyah telə, hey oxşadığım,
Köçüb ürəyində şən yaşadığım,
Alovlu ayların, ilin olaydım.

Sənsiz yaşadığım ömrün nə dadı,
Sevincim, şadlığım mənim olmadı.
İsrail ha yazdı, cavab almadı,
Xoşdur sönmüş eşqdə külün olaydım.

## BİR GÜN

Əbədi deyildir həyatda insan,
Alışan yanaqlar solacaq bir gün.
Çalış gözəl keçsin ömründə hər an,
Fələk onu səndən alacaq bir gün.

Güvənmə çox dövlətinə-varına,
Bel bağlama dövrün etibarına.
O bəyaz üzün çəşmi-xumarına,
Kədər naxışını salacaq bir gün.

Ən böyük sirdaşın olsun yaradan,
Odur el yanında səni ucaldan.
Bəşər gözlərində ağı qaraldan
Mələklər laylanı çalacaq bir gün.

İllərlə yaşadır məni bu ümid,
İnsafsız, bu eşqi özünlə böyüt.
Birgə əkdiyimiz saçaqlı söyüd,
Həsrətdən saçını yolacaq bir gün.

Tələlərdir ayaq altda qurulub,
Kim deyər pislikdən namərd yorulub.
Mayalar ki, var haramla yoğrulub
Kütəlib təndirdə qalacaq bir gün.



Qocalıq qəfildən gələcək bir an,
Tanrı da hökmüylə verəcəkfərman.
Tapılmaz bir kimsə əlindən tutan,
Gözlərin kövrəlib dolacaq bir gün.

Məhşər günü coxlu danlanacaqcan,
Miras şeirlərinlə yanılacaqsan.
İsrail, qəlblərdə anılacaqsan,
Dostlar xəyalına dalacaq bir gün.



**ANA**

Sən gedəni yaz ömrümü qış aldı,
Xəzan vurdu, barlı bağçam saraldı,
Gənclik ötdü, ömür vaxtsız qocaldı,
Yetimlik qırx yaşda dərd oldu cana,
Gözümü yollarda qoyanım ana!

Neçə gözlər pünhan ağladı getdi,
Neçə ürək qaysaq bağladı getdi,
Sinəm üstə sellər çağladı getdi,
Heyif, görüşümüz qaldı gümana
Gözümü yollarda qoyanım ana!

Ay ana, heç olubmu səndən doyan?
Şəfqət tapdı dizlərinə baş qoyan.
İsti qucağını cənnəti sayan,
Peyğəmbər adını yazdı Qurana
Gözümü yollarda qoyanım ana!

Varlığımsan, hər istəkdən ucasan,
Xatirənlə dərdlərimə əlacsan.
Diz çökübən məzarını qucasan,
Baş qoyasan torpağına, daşına
Gözümü yollarda qoyanım ana!



Sellər də söndürməz yanan sinəmi,
Görən quruyarmı gözümün nəmi?
Anamla talanmış dünyanın qəmi,
Qurban sənli keçən o günə, ana
Gözümü yollarda qoyanım ana!

Səni gözləyirəm hər gün, hər gecə,
Əmrinə tanrının şəkk edim necə?
Sənsiz bu həyatım dönubdür heçə,
Sitayiş edirəm sənin ruhuna
Gözümü yollarda qoyanım ana!

İsrail yaşasın necə, de sənsiz,
Dərdlərim çoxalıb, min oldu sənsiz,
Həyat gözlərimdə son oldu sənsiz,
Bir ömür baxaram gedən yoluna
Gözümü yollarda qoyanım ana!

## AĞLAYACAĞAM

Qəfil yuxulardan oyanıb erkən,
Ürəkdə nisgilim, gözlərimdə nəm.
Sənin ad gününmüş, bilmədim dünən,
Mən səndən xəbərsiz dərd ortağıyam,
Baxıb rəsminə hey, ağlayacağam.

Könül düşdü qasırğaya, tufana,
Onunla görüşüm qaldı gümana,
Dönük çıxsam bu əhdimə, peymana,
Özümü vəfasız bil, sanacağam,
Baxıb rəsminə hey, ağlayacağam.

O ötən günlərim mənə dərd olub,
Sinəmə sağalmaz yaralar vurub,
Sənin həsrətinlə saralıb,solub,
O tənha otaqda tək qalacağam,
Baxıb rəsminə hey ağlayacağam.

Söylə, necə keçdi mənsiz ad günün?
Xəyallar qoynuna aldımı səni?
Yandırma masada qırx üç şamını,
Hicrində şam kimi mən yanacağam,
Baxıb rəsminə hey ağlayacağam.



Kim oldu həmin gün qapını döyən,
Səninlə sevinib, səninlə gülən,
Mənə eşqimizin sultanı deyən,
İndisə səninçün qərib bir dağam,
Baxıb rəsminə hey ağlayacağam.

Gülüm, nə tez keçdi o günlər, zaman,
Donub gözlərimdə yaşla axan qan.
Yapışıb tanrının ətəklərindən,
Vaxtı saxlamaqçın yalvaracağam,
Baxıb rəsminə hey ağlayacağam.

İsrail günahın bilə bilmədi,
Talehi üzünə hec vaxt gülmədi,
Sən doğulan günü ölə bilmədi,
Qaldı ürəklərdə bir sevği nakam,
Baxıb rəsminə hey ağlayacağam.

## SÖYLƏ, NƏDİR?

Daraq olub daranaydım telından,
Inanmaram bir də tutam əlindən,
Cağırmaqdan qabar olmuş dilimdən
Qopan xoş sözlərim yalnız sənədir.
Dərdimin dərmanı sən söylə, nədir?

Odu keçmiş, közü sönmüş ocağam,
Gəl isit könlümü hələ ki, sağam,
Qayıt, keçmişimlə barışacağam.
Yanan şəmə qurban bu pərvanədir,
Dərdimin dərmanı sən söylə, nədir?

Hanı o qayğılı, sənli günlərim,
Göylərdən asılı qalıb əllərim,
Gəl ey bəyaz üzlü taleh ülkərim,
Bilirəm gileyin bir bəhanədir.
Dərdimin dərmanı sən söylə, nədir?

Həsrətdən İsrail olubdur xəstə,
Ya mənə ümid ver, ya ölüm istə,
Ağlama gələndə qəbrimin üstə,
Bil ki, o dünyam da bir viranədir,
Dərdimin dərmanı sən söylə, nədir?



## SƏNSİZ

Bir kimsə duyammaz nə çəkdiyimi,
Qaytar ürəyimdə sönən eşqimi,
Oxşar vücudumu xəyallar kimi,
Səninlə keçdiyim hər cığır, hər iz,
De, necə yaşayım mən indi sənsiz?

Sənsiz bir zülmətdir dünya gözümdə,
Gecələr ərşədir röya gözümdə,
Bil ki, həsrətinlə aya gözümdə
Səni bənzədirəm aydan xəbərsiz.
De, necə yaşayım mən indi sənsiz?

Eşitdim arzuya, kama çatdığın,
Bir yeni sevdayla başin qatdığın,
Arxamca əl edib, su da atdığın,
Üstümə uçaydi kaş ki, o dəhliz,
De, necə yaşayım mən indi sənsiz?

Sarışın saçını boynuma dola,
Boğ hiddətlə məni yox ola-ola,
Birğə gəzdiyimiz o düzə, yola
Heyif ki,naxışdır xoş xatirəmiz,
De, necə yaşayım mən indi sənsiz?

Zaman bir yarani sağaltsa əgər,
Beşin peyvənd edib yanaşı əkər,
Qara gözlərinə duman tək çökər,
Gocalar səninlə körpə sevgimiz
De, necə yaşayım mən indi sənsiz?

Mən nələr çəkmədim, nələr üç ildə,
Sahibsiz qayığam tənha sahildə
Səadət axtarsan sən İsraildə,
Yenidən doğulaq bu dünyaya biz
De, necə yaşayım mən indi sənsiz?





## O GÜNLƏR

Sən ellər gözəli, ey nazlı sənəm,
Ey büllur buxağı, yanağı səbnəm,
Ruha ilham verən küskün qərinəm,
Bu yetim asiqə sal hərdən nəzər,
Görən qayıdarmı bir də o günlər?

Sənlə keçən günə, çağa tamarzı,
Əlçatmaz zirvəyə, dağa tamarzi,
Əlimlə əkdiyim bağa tamarzı,
Qurtula esq adlı əzabdan bəşər,
Görən qayıdarmı bir də o günlər?

Qələm götür, dərdini yaz, ağlayım,
Ötəndə qış, gələndə yaz, ağlayım,
Qoy mən edim rəsminə naz, ağlayım,
Bitmişəm yolunda hər axşam, səhər,
Görən qayıdarmı bir də o günlər?

İstərəm kecmişə qayıdım bunca,
Gül-çiçək yığaydıq sənlə doyunca,
Yamyaşıl çəmənə sərib bir xalca,
Danışıb, güləydik səhərə qədər,
Görən qayıdarmı bir də o günlər?

Gün gələr, silinər izim şəhərdə,
Oxunar şeirim, sözüm şəhərdə,
Deyin müxtəsəri, bizim şəhərdə
Bir şair yaşamış Məcnundan betər,
Görən qayidarmi bir də o günlər?

## DƏRDƏ SALIBDIR

Nə vaxtdır heç nəyi görməyir gözüm,
Eşqin gözlərimə pərdə salıbdır,
İçimdə yanıram, görünmür közüm,
Bir mələk könlümü dərdə salıbdır.

Nə ilki, nə sonu bəlli dünyanın,
Haqdan üz döndərən dəli dünyanın,
Üzülüb əlimdən əli dünyanın,
Bir mələk könlümü dərdə salıbdır.

Nə qədər arzular könlümdən keçər,
Əlçatmaz olmusan ulduzlar qədər,
Fəryadim göylərin bağrını dələr,
Bir mələk könlümü dərdə salıbdır.

İsrail, heç işin olmadı asan,
Arzumu, duyğumu səmadan asan,
Eşitdim göylərdə qərar tutmusan,
Bir mələk könlümü dərdə salıbdır.



## BACI QAYĞISI

Ən böyük səadət,ən böyük istək,
Mənimçün həyatda bacı qayğısı.
İsidər qəlbimi şaxtada od tək,
Yanar hərarətlə bacı qayğısı.

Elə bir ocaqdır odu soyumaz,
Ayın bənzəridir bənizi solmaz,
Yüz dəfə qurbanın olar yorulmaz,
Yaşar məhəbbətlə bacı qayğısı.

Bu gözəl həyata xoş növraqsınız,
Hərəniz bir evə gur çıraqsınız,
Ər evin dayaği, qardaş andınız,
Anda sədaqətlə bacı qayğısı.



## ŞAİR OLMAZ

Tanrı qoydu şairi nə günlərə,
Qəmə sirdaş edib saldı çöllərə,
Sığal çəkdi vaxtsiz solan güllərə,
Kərəmə, Məcnuna eylədi taraz,
Gül tək solmayandan bil, şair olmaz.

Şəhriyar bir ömür çağladı, yazdı,
Əza Pərisinə saxladi, yazdı,
Qərib anasına ağladı, yazdı,
Boynu bükük durdu hər gələndə yaz,
Tənha qalmayandan bil, şair olmaz.

Şərqdir astanasi ilk şeiriyyətin,
Qananlar azalıb sözün, hikmətin.
Xəyyam kimi böyük bir şəxsiyyətin
Dünyada bənzəri tayi tapılmaz.
Müdrik olmayandan bil, şair olmaz.

Dolan qarış-qarış doğma diyarı,
And yerimiz şəhidlərin məzarı,
İçib buz bulaqdan bir qurtum barı,
Dil açıb sinəndə coşsun telli saz,
İlham almayandan bil, şair olmaz.

İsrail, yuxuymuş sanki bu ömür,
Kimi şən yasayır, kimi dərd bölür.
Sənin həsrətinlə neçə yay döyür
Boran, qar qapımı, ay eşqi dayaz,
Eşqə yanmayandan bil, sair olmaz.



## ÇƏKMİŞƏM

Bu sevginin dünya boyda qəmini
Ürəyimdə tək başına çəkmişəm.
Fırça kipriyimlə gözəl, rəsmini
Orenburqun hər daşına çəkmişəm.

Güllər sevgimizə çələng toxudu,
Bu esq dastanını çoxu oxudu,
O sənli günlərim heyif, yuxudu,
Bu həsrəti dörd yaşına çəkmişəm.

Getdin taleyimdən səssiz, soraqsiz,
Ay xoş anlar, necə məndən uzaqsız.
Bir könül yandısa odsuz, ocaqsız
Acısını göz yaşına çəkmişəm.

Arzum, hamı sevdiyindən yarısın,
Şən yaşayıb xeyirliklə qarısın.
Çiçəklərin əlvan rəngli boyasın,
Məlhəm ola göz-qaşına çəkmişəm.

Sevgiyə, duyğuya qapanan ürək,
Biləmməz yaz gəlir, ya solur çiçək,
İnanaraq hisslərimə uşaq tək,
Cəfasını boş-boşuna çəkmişəm.

## MASALLIDADIR

O mavi Xəzərdən sökülləndə dan,
Şəfəqli dağlara sən bax uzaqdan,
Şəfalı suları qayadan axan
Çağlayan bulaqlar Masallıdadır.

İbadət əhlidir burda el, mahal,
Quran hikmətindən olsan əhli-hal,
Ərk edib, hər evdə dəstamazın al,
Müqəddəs ocaqlar Masallıdadır.

Bu yurdda nənəmin asdığı beşik,
Qayalı keçidlər, şaxtalı eşik,
Zirvələri qar alanda görmüşük,
Əzəmətli dağlar Masallıdadır.

Duman Dəmbəlova çəkəndə örtük,
Ov dalınca dərələri süründük.
Yanar dağda qalın çənə büründük,
Səfalı xoş cağlar Masallıdadır.

Sığdaşlı, güneyin Talış dağları,
Ordadır gəncliyin şirin çagları,
Xəstəyə şəfalı buz bulaqları,
Laləli yaylaqlar Masallıdadır.



## A MÜRŞÜD!

*(Yekaterinburq şəhərində yaşayan xala oglu
Əmirov Mürşidə həsr olunur)*

Çətin bir də cavanlığın, gəncliyin
Qayıdıb qapına gələ, a Mürşüd!
Sevinc dolu rahatlığın, dincliyin
Döndü xəzan vurmuş gülə,a Mürşüd!

Həsrətsən görməyə güllü yamacı,
Laləli düzləri, kəklik, turacı,
Təmiz ad, saf vicdan başının tacı
Dayaqsan Sığdaşa, elə, a Mürşüd!

Qoynunda doyunca gəzmədik, dağlar!
Qayalı keçidlər, büllur bulaqlar.
Hanı Ağalla hi, hanı o çağlar,
İntizarsan ötən ilə, a Mürşüd!

Bərkə düşdün, əyilmədin, sınmadın,
Dərd çoxaldı, heç də könül qırmadın.
*Leqenda* ləqəblə yanaşı adın
Ləyaqətlə düşdü dilə, a Mürşüd!

## MƏLƏK

Sən ey dili şirin, gözləri xumar,
Səninlə ötüşdü qayğılı çağlar.
Ömür təqvimindən vaxtsız varaqlar
Qopduqca köksümdə sızladı ürək,
Nigahın mübarək olmasın, mələk!

Ağzımdan getməmiş uramın dadı,
Çağırdın masana özgəni, yadı,
Niyə tez unutdun verdiyin andı,
Bu bir oyun oldu, yoxsa ki, kələk?
Nigahın mübarək olmasın, mələk!

İsrailin dərdi dərindən-dərin,
Vəfası olmayır çox gözəllərin,
Ölsün sən kimisi, sağ qalsın ərin,
Onu da tezliklə aparsın fələk,
Nigahın mübarək olmasın, mələk!



## GETSİN

Hanı məni oda atan o mələk,
Ömrün yoxuşunda talandı məslək.
Ya aşkara gəlsin, ya da xəyal tək,
Gizlicə halıma ağlayıb getsin.

Körpə eşqimizə dəydi bəd nəzər,
Qayıt, soyumamış ocaqda közlər.
Şəlalə hörüklər, o xumar gözlər
Yenidən sinəmi dağlayıb getsin.

İsrailəm, gəlib ömrün payızı,
Xəstə könlüm camalına tamarzı,
Çağırın son anda o vəfasızı
Barı, gözlərimi bağlayıb getsin.



## SƏNİ XATIRLAYIRAM

Ala gözlüm, barmaqlarım yorulub
Sənsiz ötən günlərimi saymaqla.
Sən gedəni xəzan vurub,
güllər solub,
Sevgi dünyam viran olub,
xəyalınla yaşamaqla.
Sən necə də mənə əzizsən,
Sən necə də mənədoğmasan
Doğmalarımın içində.
De səbəbini sevincimdən
coşum, çağlayım,
Ya kimsəsiz körpə tək kövrəlim, ağlayım.
Lalmısan? Bir danış, ümidimi
Ümmansız dəryalara bağlayım.
Qoy qərq olub dalğalarda
Cismimlə,ruhumla
Ölümü özümə şərəf sanım,
Sənsiz qalmaqla.
Sənsən şair qəlbimin ilhamın qıran,
Yaşadan, öldürən, göyə ucaldan.
İsrailin qəlbində sən tək yuva quran
Tapılmaz ömrü boyu
Hey xatırlamaqla.



## GƏLMİŞƏM

Kövrəlmişəm, qələm tutmur barmağım,
Qayıdarmı bir də sənli növrağım?
Gəl ey xəzan vurmuş səadət bağım,
Səndən ilham diləməyə gəlmişəm.

Gözəl günlər yaşadıq, olsa az da
Dolandıq cahanı sənlə azadə,
Sənin aşiqinəm, ey mələkzadə,
Bəxtinə nur ələməyə gəlmişəm.

Nə gözəl təsadüf sənlə görüşdüm,
Baxışlarda şimşək çaxdı, üşüdüm.
İsrailəm, daha yoxdu ümidim,
Son vidanı dinləməyə gəlmişəm.



## O GÜNDƏN BƏRİ

Fələk şadlığıma qənim kəsilib,
Sən mənim ömrümdən gedəndən bəri.
Göz yaşım yanağın, yanağım bilib
Səhv saldı ünvanı, o gündən bəri.

Ortaq idim sənə gələn bəlaya,
Yollar məni hey gətirdi dolaya.
Dönmüşəm alınmaz köhnə qalaya
Səndə etibarı görəndən bəri.

O könül bağında solmuş xəzələm,
Sönmüş bir ocağam, çətin közərəm,
Yanib külə döndü o yazıq Kərəm
Əsliyə ümidi itəndən bəri.

Taleyim bəxtimlə durub savaşa,
Vaxtsız gözlərimdə dönürsən yaşa.
Az qalır fəryadım mehracı aşa
Yuxuma gizlicə gələndən bəri.

İsrail de kimə ümid bağlasın,
Sənsiz gecələri pünhan ağlasın,
İtirib mənimçün həyat mənasın,
Adını qəlbindən siləndən bəri.



## DUNYA

Heyifdir payimal olmasın ömür,
Yaşayaq insanlıq fənnində, dünya.
Verdiyin nalənin sonu görünmür,
Kainat gizlənib çənində, dünya.

Özün bilirdin ki, haqqa cığaldın,
Bəs niyə düzlüyü boynuna aldin,
Beşikdən məhşərə gen körpü saldın,
Çoxları boğuldu selində, dünya.

Bu qədər günaha necə batırsan?
Haramı halala necə qatırsan?
Taleyi elə bil pula satırsan,
Səadət qalmayıb şənində dünya.

Həyasız yanında ziyalın susur,
Namərdlər mərdləri daimi pusur,
Qeyrətsiz qeyrətdən zirvələr qurur,
Çaşıb mat qalmışıq nənnində dünya.

Dostun İsrailə verdin əzabı,
Zəhərlə içirtdin meyi, şərabı,
Daha ürəyimin qalmayıb tabı,
Qol açıb oynayam düyündə dünya.

## ANAMA

Nə vaxtdır ay ana, həsrətindəyəm,
Sacımı oxşayan əlinə qurban.
Ömrün qışla-payız vəhdətindəyəm,
Laylanla yatdığım ilinə qurban.

Qorqud yadigarı Ozan elində,
Mizrab yana bilməz naşı əlində,
Əslim talış, şeirim ana dilində,
Türkcə dil öyrədən dilinə qurban.

Çox görmüşəm bu fələyin oynunu,
Kimsəsiz yetimin bükdü boynunu,
Mustafa seçmisdi cənnət qoynunu,
Behiştdə dil açan gülünə qurban.

Arzum, gül-çiçəyə boyana ömür,
Tələsir, bilmirəm hayana ömür,
Qorxuram anasız dayana ömür,
Cahana nur saçan sölənə qurban.



## SƏNSİZ NÖVRAĞA

Baxıb sətirlərə ömur kitabın,
Hardan alım ötən günün hayıfın?
Tamada qaldırsın əldə şərabın,
İçsin qonaqlarla hər bir sağlığa,
Şükürlər etmərəm sənsiz növrağa.

Famil "deyin hardadır..." oxuyacaq,
Haray mənim, səssə onun olacaq,
Bu kövrək könlümü közsüz yaxacaq,
İtmiş səadəti düşüb sorağa,
Sükürlər etmərəm sənsiz növrağa.

Məclislər bəzəyi "qarmon Alim"dir,
Segahı ağladar, sanki yetimdir,
Çoxdan mən bitmişəm, artıq ilimdir,
Gəzən ruhumdan çalış kam almağa,
Şükürlər etmərəm sənsiz növrağa.

Əli "Kərəmini" yandırsın sazda,
Əhdini danmasın o vəfasız da,
Oyansın naləmdən, bilsin o qız da,
Tək mən oldum bu sevgiyə sadağa,
Şükürlər etmərəm sənsiz növrağa.

Necə gileylənib yanmayım ahda,
İsrail, bu dünya batır günahda,
Hər gələn axşamda, doğan sabahda,
Əksinlə duranda qabaq-qabağa
Şükürlər etmərəm sənsiz növrağa.

## VƏFASIZIM

Sənsiz keçirdiyim günlərim hədər,
Əyəcək qəddimi qüssə, qəm, kədər.
Sən mənə uzaqsan yerlə göy qədər.
Bircə baxışına həsrətdir gözüm,
Unutdun əhdini, ey vəfasızım.

Məni Məcnun görüb, demə dəliyəm,
Alışan kamanam, inləyən neyəm,
Gəlmişdim baxmadın, son dəfə deyəm
Qəm üstə köklənib sinəmdə sazım,
Unutdun əhdini, ey vəfasızım.

Əlimin istisi qalmış əlində,
Verdiyim tər güllər ayna önündə,
Özgə barmaqları daraq telində,
Tanrı cəzasıdır qismətim, yazım
Unutdun əhdini, ey vəfasızım.

İsrail, görüşün gümanadırsa,
Döz, qüssə qəlbini yaxıb yandırsa,
Çəkdiyin şəkillər xatırladırsa,
Ömrün ən alovlu anıydı bizim…
Unutdun əhdini, ey vəfasızım.



## МОЙ АНГЕЛ

Мой дивный ангел с талией тончайшей,
Живи и здравствуй без хлопот печальных.
В миг расставанья, в тишине звенящей
Ты слёз моих не видела прощальных.

Погаснет память искоркой во взгляде,
Истлеет сердце на костре разлуки.
Когда чужой твои ласкает пряди,
Тепло их сохранят поэта руки!

Забот и устремлений видишь мнимость,
Впуская в дверь заждавшуюся старость.
О, Исраил, в дугу несправедливость
Тебя согнёт… Что седина ей? Малость.



## НЕСБЫВШАЯСЯ МЕЧТА

Оставила, в любовь ушла другую,
Скользнув меж рук протянутых былинкой.
Когда расчешет ветер прядь тугую,
Оторванной хочу быть волосинкой.

Родник любви журчит, не иссякает,
Несёт прохладу для тебя, но мимо.
Когда в разлуке сердце замирает,
Слезой хочу быть на щеке любимой.

О, жизнь, ты оборвёшься вдруг на пике
С мечтой несбывшейся о счастье беглом.
Когда улыбка вспыхнет вновь на лике,
В костре её хочу быть мёртвым пеплом!





* * *

Создания Божьи на свете не вечны,
Цветы, распустившись, осыпятся за день.
И радость, и счастье всегда быстротечны.
Живи, наслаждайся, с судьбою не сладить.

Век дальше продлить не помогут богатства,
И время на милость тебя не отпустит.
В людской красоте нет, увы, постоянства –
Ложатся морщины узорами грусти.

Ближайшего ближе для смертных Всевышний.
Тебя Он поставит с достойными вместе.
Полюбишь Его – в час кончины услышишь
Небесных гонцов колыбельные песни.

Расставлены снова капканы врагами.
Устанут ли злые от мерзких деяний?
Пусть тесто недобрыми месят руками,
Хлеб праведным станет в горниле страданий.

## ПОКИНУВШЕЙ МЕНЯ

Как шах даёт фирман*, дай право быть с тобой.
В моих мечтах живёт единственное чувство.
Жду взгляда твоего, так влаги дождевой
Сухая ждёт земля, страдая безыскусно.
...Зачем, неверная, покинула меня?

Поверишь или нет, другим в твоих глазах
Предстану я теперь, душа теряет силы.
Что для тебя стихи – ухмылка на губах...
Не плодоносит сад заброшенный, немилый.
...Зачем, неверная, покинула меня?

Прикосновений жар не сохранит рука –
Увядшие цветы пред зеркалом забыты.
К любимым волосам тянусь издалека,
Но рядышком чужой ласкает их открыто.
...Зачем, неверная, покинула меня?

Захочешь быть со мной, промолви: «Исраил,
Приди», – и я приду, себя не унижая.
Смотрю на образ твой, на ту, кого любил.
Жизнь мимо пронеслась, в любви забот не зная.
...Зачем, неверная, покинула меня?

* указ



## В ОБЪЯТИЯХ ТВОИХ ПОЗВОЛЬ МНЕ УМЕРЕТЬ!

Я слёзы лью опять, отбросив прочь перо.
Как наши дни вернуть обратно, подскажи.
Был красок полон сад, теперь серым серо.
Оплачу соловьём на ветке боль души:
– В объятиях твоих позволь мне умереть!

Родительской любви лишённый сирота,
Подобный кораблю, застывшему во льдах,
Не ведая, что есть на свете доброта,
К тебе я обращусь, сжимая в сердце страх:
– В объятиях твоих позволь мне умереть!

Прекрасен для двоих бег времени, но быстр.
По миру рядом шли свободные, как ветер.
Дочь ангела, любовь – моих деяний смысл,
Сотру я боль с души – мир сразу станет светел:
– В объятиях твоих позволь мне умереть!

Случайно или нет, мы встретимся с тобой,
И молнии зигзаг тьму ослепит пути.
Колени задрожат... Застыв, как неживой,
Я, Исраил, скажу последнее «прости»:
– В объятиях твоих позволь мне умереть!

## МАМЕ

Когда ты ушла, то весна обернулась зимой.
Сорвал ветер шквальный в садах восковую листву.
Закончилась молодость… Горе кричит за спиной:
«На сон не надейся, ты стал сиротой наяву!»
– Но ищут глаза мои снова тебя, Мама!

Покинула нас… Слёзы тайно текут без числа.
Ушла, не вернёшь – стоном сердца к себе не зови.
На душу мою селевая лавина сошла –
Обломки мечты, светлой радости, долгой любви.
– Но ищут глаза мои снова тебя, Мама!

Найдётся ли тот, кто насытился жизнью с тобой?
Таких не отыщешь средь жителей тысячи стран.
Нашёл сам Пророк в материнских объятьях покой
И матери имя вписал он в Священный Коран.
– Но ищут глаза мои снова тебя, Мама!

Быть с матерью рядом – превыше желаний иных.
Трудилась, чужих не просила, снискала хвалу.
Поклон мой тебе до земли, благодарственный стих…
К могильному я твоему припадаю холму.
– Но ищут глаза мои снова тебя, Мама!



Плотины сметающий, горный поток ледяной
Не в силах залить боль потери в горящей груди.
Не высохнут слёзы, останется горе со мной –
По жизни пойдёт, обгоняя меня, впереди.
– Но ищут глаза мои снова тебя, Мама!

Как жить, подскажи, как дышать, подскажи, без тебя?
Страданья мои снежным комом растут без тебя,
И солнце померкло во взгляде моём без тебя.
Как нищий, скитаюсь по жизни один без тебя,
– Но ищут глаза мои снова тебя, Мама!

Жду встречи я вечером поздним и солнечным днём,
Но волю Всевышнего смертному как изменить!
Лишь только во снах суждено пребывать нам вдвоём,
В другое же время, не видя друг друга, любить.
– Но ищут глаза мои снова тебя, Мама!

## На фото милое смотрю...

Проснувшись рано, вновь глаза сомкнуть не мог.
Зарёй рождённый, в них купался тёплый свет.
Я День рожденья твой пускаю на порог.
Отпраздную один, пускай тебя здесь нет.
На фото милое смотрю и грустно мне.

Поздравить утром не приду к тебе домой
Любовь взаимная теперь, как сирота,
От взглядов наших обернётся вдруг тоской
Со складками вины – морщинами у рта.
На фото милое смотрю и грустно мне.

Печаль прошедших дней останется в душе,
И в сердце рану не удастся залечить.
Столкнёт судьба нас на случайном вираже –
Умру,  воскресну и продолжу дальше жить.
На фото милое смотрю и грустно мне.

Как провела свой День рожденья?.. Не молчи,
Ответь... Забудут ли объятия тела?
Ты зря затеплила все сорок три свечи,
Любовь моя сама сгорит свечой дотла.
На фото милое смотрю и грустно мне.



Султаном наших чувств звала меня не раз,
Теперь гора я неприступная средь гор.
Захочешь встретиться, прельстить сияньем глаз –
В тумане спрячусь, не пойду на разговор.
На фото милое смотрю и грустно мне.

Ты без вины стал виноватым, Исраил,
Судьба улыбку подарила вновь другим.
В твой День рожденья даже тёплый свет не мил,
В окошко льющийся... Страдаю, не любим.
На фото милое смотрю и грустно мне.

Как встречу первую забыть нам, подскажи?
Пожатья нежных рук, заре подобный взгляд...
Моё ты имя кровью сердца напиши.
Любовь состарилась на год, и я не рад.
На фото милое смотрю и грустно мне.

## ДОМ СЕРДЦА МОЕГО

Стать бы гребнем, ласкающим пряди твои,
В пальцах нежных я был бы заботлив, не груб.
Сколько раз я просил: «Отзовись… Позови…»
Словно слёзы – слова, соскользнувшие с губ.
Разрушен был тобой дом сердца моего.

Я потухшая лампа, погасший очаг,
Заблудившийся путник в студёной ночи.
Ты дыханьем согрей, сделай первая шаг.
Мотыльком полечу я на пламя свечи.
Разрушен был тобой дом сердца моего.

Вспыхнет всё под напором горящей волны:
Наши встречи, дела, сонм взаимных забот.
Дева милая с ликом, прекрасней Луны,
Ты звезда, осветившая мой небосвод!
Разрушен был тобой дом сердца моего.

Исраил от разлуки больного больней.
Мы немые – язык наш забыт навсегда.
Так молчат у холодных могильных камней,
Лишь фантазия серые красит года.
Разрушен был тобой дом сердца моего.



## ПОЭТОМ НЕ БУДЕТ!

О, Боже, смотри, что ты сделал с поэтом –
Он спутником горя стал в страшной пустыне,
Засохшим бутоном засушливым летом,
Кериму с Меджнуном подобен отныне.
Цветок не завядший поэтом не будет!

Всю жизнь воспевал ненаглядную Пери
Поэт Шахрияр, не смирившись с утратой.
Весну молодую оставив за дверью,
Грустил о былом и совсем был не рад ей.
Любовь не терявший поэтом не будет!

Восток – вот поэзии вечной столица.
Жаль, мало поверивших в искренность слова.
Кто сможет с великим Хайямом сравниться,
Умы будоражущим снова и снова?
Не мудро проживший поэтом не будет!

Пройдись по тропинкам родимого края,
Склонись до земли у Могилы шахидов,
Скажи: «Выпил музыку вод родника я,
И саз наиграл мне красу милых видов».
Талант не имевший поэтом не будет!

Загадочна жизнь, Исраил, и чудесна –
Мы делим и радость, и грусть почему-то.
Закончилось лето, и зимняя песня
О долгой разлуке мне слышится утром.
Слезы не проливший поэтом не будет!

## ВСПОМИНАЮ ТЕБЯ

Знай, кареглазая, как монотонно
Разлуки нашей дни считать на пальцах.
Листва опять скрывает почвы лоно,
Руинами встречает мир скитальца –
Мне с мыслью о тебе не суждено расстаться.

Ты почему так дорога? Не знаю.
И почему роднее мне
Друзей и близких?
Я лепестки любви безжалостно срываю,
Перебирая  расставаний числа.

Ответь хотя бы взглядом, вместо слова.
Моя надежда тонет в океане,
А дно всё ближе...
Блуждать в горах воспоминаний снова
Придётся нам, пока любовью дышим.

Ты обрываешь нити вдохновенья,
Сдуваешь листья с обнажённой почвы
И вновь роняешь их без сожаленья...
Так ветер дует, лишь когда захочет.
До слёз воспоминанья душат – нету мочи.



## КАК ЖИТЬ БЕЗ ТЕБЯ

Кто догадается, что с горем век делю,
Оставлена любовь в заснеженной душе.
В места нам близкие вернусь и растоплю
Лёд отчуждения, наскучивший уже.
Как жить мне без тебя на свете, подскажи?

Мир совершенный превратило горе в ночь,
Лишило красоты и ярких красок сна.
Я на Луну смотрю, она как ты точь-в-точь,
Прекрасна и слепа, у моего окна.
Как жить мне без тебя на свете, подскажи?

Твоя мечта сбылась, моя, к печали, нет.
Чужой любви зерно взросло у нас на поле.
Прощаясь, ты водой плеснула щедро вслед –
Да лучше бы балкон тогда свалился, что ли.
Как жить мне без тебя на свете, подскажи?

Остались навсегда моих подошв следы
На крашеном полу в твоём уютном доме.
И ласковым словам поэта внемлешь ты
Тогда и до сих пор, и наяву, и в дрёме.
Как жить мне без тебя на свете, подскажи?

Аркан льняных волос на шею пал мою.
Задушишь ли опять меня в любовной неге?
По городу пройду и память оживлю
Орнаментом ковра, игрой волны на бреге.
Как жить мне без тебя на свете, подскажи?

О, время-садовод, срубив мою болезнь,
Пять саженцев привей опять к больному месту.
На карие глаза, туман седой, не лезь,
И в старости любовь – дитя – жалей и пестуй.
Как жить мне без тебя на свете, подскажи?

Три года в горе жить – вот грустный мой удел,
И триязыко я воспел в стихах печали.
Пусть в жизни Исраил надеждой стать не смел,
Давай родимся вновь и встретимся в начале.
Как жить мне без тебя на свете, подскажи?





## ВЕРНУТСЯ ЛИ НАЗАД…

Не найдёшь никого в нашем городе краше тебя,
И румянца цветы на щеках – лета жаркие зори.
Пусть обиделась ты, вдохновенье ищу я, любя,
В несравненной малышке, прекрасной и в счастье и в горе.
Вернутся ли назад счастливой жизни дни?

Напиши мне пером про обиду – прольётся слеза.
Загрусти о весне долгожданной – я тоже заплачу.
Лишь возьму фото в руки – дождливая грянет гроза.
Буду ждать у подъезда, промокну, но как же иначе.
Вернутся ли назад счастливой жизни дни?

Наши ночи теперь далеки, не достанешь рукой,
Будто я на вершине высокой  горы задержался.
Бродишь в дивном саду, где цветочек посаженный мной,
Словно я без любви, без живительной влаги остался.
Вернутся ли назад счастливой жизни дни?

Возвратиться бы в прошлое – разве возможно забыть
Как охапками рвали в полях первоцветы степные,
Расстилали ковёр, и под звёздами тонкую нить
Разговора плели, улетая в пространства иные.
Вернутся ли назад счастливой жизни дни?

Покидаю я город и следую в новую даль,
Оставляя стихи на шуршащих от ветра страницах.
Скажут люди: «Поэт не в себе, расставаться не жаль,
Он Меджнуну подобен и к страсти высокой стремится».
Вернутся ли назад счастливой жизни дни?

Аромат урамы на столе, испечённой тобой –
Запах памяти встреч – он со мной пребывает поныне.
Пусть чужие в родне и для близких твоих я изгой,
Лишь дыханьем твоим я живу, и любовь не остынет!
Вернутся ли назад счастливой жизни дни?





## О СЧАСТЬЕ

Кареглазая нежность любимого взгляда,
Ты снедала меня, волшебство обещая мгновений.
Календарь моей жизни в осенней тоске листопада,
И в душе лишь желаний несбывшихся тени.
...О, замужняя, разве ты стала счастливой?

Никому на земле не доверю я горе.
Сам сгораю в любви, пусть в огне не дано возродиться,
И планета с орбиты ушла снова в космоса море,
Я мечтаю с тобой вместе душами слиться.
...О, замужняя, разве ты стала счастливой?

Если искоса смотрит Всевышний, в печали
Будешь жить вечно сгорбленной – жалкая женская доля.
Исраил, не спасают от зла даже латы из стали,
Коли зло вызывает на бой в чистом поле.
...О, замужняя, разве ты стала счастливой?

## УНЕСЁННЫЕ БУКВЫ

Я о будущем нашем Всевышнему задал вопрос –
Имена написав на прибрежном каспийском песке.
Гребней пенных касаясь, как прядей холёных волос,
Ветер песню шептал на известном ему языке.
Красным светом зари пробуждённый я к морю пришёл.
Ничего не осталось – исчезли мои письмена.
Шторм ночной, заливающий берег и мол,
Стёр ладонями волн дорогие для нас имена.
Ни тебя… Ни меня… Лишь прохладное утро зовёт
Прогуляться по городу, встретить знакомых людей.
Чаек шумных отчаянный горний полёт –
Между мачт, загостивших в порту кораблей.
Буду славить Мудрейшего, давшего утром ответ:
– Благ не жди от любви… Буквы шторм безвозвратно унёс,
Прогоняя из глаз навсегда солнца радостный свет…
Я о будущем нашем Всевышнему задал вопрос.



## БУКЕТА ОДНОГО ДВЕ ПОЛОВИНЫ

Где ангел мой, оставивший в огне,
И жажде, что всегда неутолима?
Подъёмы, спуски… Жизнь моя во мгле,
А ты, как солнца луч, проходишь мимо.

Дни, месяцы, года текут без нас.
Слёз горьких разделившая лавина
Не высохнет ни завтра, ни сейчас.
Букета одного две половины.

Приходит осень жизни, Исраил.
Душа больна, лицо твоё не вижу.
На вздох последний вряд ли хватит сил.
Приди, любовь, и сядь ко мне поближе.



## СЫНУ

Ресницы, взбунтовавшись, задрожат.
Когда узнаешь жизненный свой срок.
Будь мудрым средь удач и средь утрат
Под ангельским крылом судьбы, сынок.

На циферблате стрелки не в ладу,
Февраль короткий вырасти не смог,
Ведь месяцы неравные в году…
Сам шар земной опоры ждёт, сынок.

О вечной жизни даже не мечтай,
Рождённых смоет времени поток.
И свет, и тьма с тобой – не забывай,
Ты злого распознать сумей, сынок.

Погоду изменил нам новый век,
И пахнет по-особому цветок.
За горсть монет полюбят и калек.
Любовь не бескорыстная, сынок.

О, Исраил, пусть ярче всех костров
Пылает чувство, это – не порок.
Ресницы вздрогнут… От своих же слов
Сейчас друзья бегут… Пойми, сынок.



## ВО СНЕ

Грусть стала ближе, радость – вдалеке,
Когда ушла ты… На моей щеке
Твои блестели слёзы – дождь разлук,
И адреса забылись нами вдруг.

Несчастья снова разделю с тобой,
В костёр любви отправленный судьбой.
Я крепость, что вовек не захватить
С тех самых пор, как стали мы любить.

В душевном пепле не найти огня –
Жить с этой мыслью трудно для меня.
Но не ломаюсь с детства я, не гнусь,
Любой беды на свете не боюсь.

Твоя судьба поспорила с моей,
В глазах поэта слёзы солоней.
К седьмому небу долетит мой крик –
Твой образ в сновидении возник.

Знай, Исраил, что радость – вдалеке,
Печаль с тобою плачет в уголке,
И потеряла смысл привычный жизнь,
Ты вычеркнут любовью, но держись!

## ОПЕЧАЛЕННОЕ СЕРДЦЕ

Пусть юность укутал туман пеленой,
Я в зрелости счастлив любовью одной,
Цветком драгоценным красы неземной.
Печалью, мой ангел, наполнила сердце…

Где мира начало, где мира конец –
Привычное сделал загадкой Творец,
Красавицы первой ты носишь венец.
Печалью, мой ангел, наполнила сердце…

Агр* древних вершины сжал намертво лёд,
Ни солнце, ни ветер его не берёт,
Как душу твою слов изысканных мёд.
Печалью, мой ангел, наполнила сердце…

Стыжусь к милой деве протянутых рук,
Боюсь оскорбить или вызвать испуг.
Всевышний, скажи, ей не враг я, а друг.
Печалью, мой ангел, наполнила сердце…

Заботы насущные – все о тебе,
Я с чувством своим в непрерывной борьбе,
Звездою ты стала в поэта судьбе.
Печалью, мой ангел, наполнила сердце…

Ты лёгких путей не искал, Исраил,
До неба седьмого добраться нет сил,
Где светишь ты ярче небесных светил.
Печалью, мой ангел, наполнила сердце…

* Агры – горы с ледяными вершинами в Нахичевани.



## ЦВЕТОК МАТЕРЕЙ

Я по тебе тоскую день и ночь –
Вернуть бы рук заботливую нежность.
Зима настала, гонит осень прочь,
На жизненной тропе – разлуки вечность.

Саз мне поёт, стихами наизусть
Поэта связь с небесным не прервётся.
Талыш корнями, слов турецких грусть
От матери ко мне передаётся.

Стать сиротой распорядился рок –
Ты в облаках, я в суете и тлене.
В раю растёт всех матерей цветок,
Склоняю перед ним свои колени.

Так хочется, чтоб жизнь всегда цвела,
Уходом быстрым судьбы не разрушив,
И совершались добрые дела…
Без матерей людские плачут души.



## ДУНЬЯ*

Жаль времени, ушедшего на ветер,
И жизни бренной, от страданий тёмной,
Когда сквозь горе солнце нам не светит,
Сердца закрывшим в уголках укромных.

И правде с кривдой никогда не тесно
Сидеть вдвоём на мира мощной шее.
Ты узкий мостик протянул над бездной –
Чем дольше путь с рожденья, тем страшнее.

Берущий на себя грехи, пороки,
Смешавший на земле харам с халялом…
Ночные затворяются чертоги,
Как бодрствуешь под неба покрывалом?

Не видим счастье в лучшие минуты,
И праведность цветёт среди бесстыдства.
С паломниками пьяницы и плуты
В одну толпу всегда желают слиться.

Ты, Дунья, подвергаешь Исраила
Тяжёлой жизни – поишь чаем с ядом.
Иссякла в сердце жизненная сила –
Ни праздников, ни горестей не надо.

* мир; вселе́нная; земля́ (азерб.).



## ЧЕТЫРЕ ВЕСНЫ

В любви нашей счастья не больше, чем боли.
Душой ощущаю неправильность эту,
И кистью ресниц – краской, горькой от соли, –
Твой образ рисую, скитаясь по свету.

Бутоны навстречу любви распахнулись,
Запел соловей – что за дивное время…
Четыре весны, как с тобой разминулись,
В земле погибает проросшее семя.

Беззвучен уход – ни рыданий, ни всхлипов.
Истаяла в дымке, исчезла бесследно.
Душевный огонь, не отбросивший бликов,
Мне сердце сжигает, стучащее тщетно.

В любви пребывающим счастья желаю.
С тобою могли мы состариться вместе,
Цветочной пыльцой я глаза украшаю
Любимой в мечте, всех желаний чудесней.

Для будущей жизни возьми на прощанье
Всё лучшее – наши улыбки и чувства.
И годы мои забери… Лишь страданье
В стихах Исраила. Без милой мне пусто.

## СЕСТРЕ

Ты даришь мир моей душе, сестринская забота,
Наполнив сердце добротой, улыбкой – каждый взор.
Нам не страшна с тобой вдвоём любая непогода,
Сестра моя, ты светоч мой с далёких детских пор.

Гостеприимный твой очаг встречает нежно брата,
С улыбкой солнца на устах сестры не вянет лик.
Готов пожертвовать собой, чтоб счастливо, богато
В здоровье, свете и любви жила ты каждый миг.

Твоим стараньем новый дом как замок стал из сказки,
Дыханьем греешь ты детей, прижав к груди своей.
В тебе тепло, в тебе весна, ты расточаешь ласки.
Опора – муж, а брат родной есть клятва жизни всей!





## В МАСАЛЛАХ

Каспийское море – эгей, милый друг! – окрасил рассвет
И горы поджёг у нас в Масаллах, чудесней их нет!
Бурлят родники у подножий седых туманных хребтов.
Трясётся земля, и в недрах слепых – основа основ.

Как набожны жители всех деревень – число их не счесть.
Науку Корана помогут постичь премудрые здесь,
Молитву творить разрешается всем в жилище любом.
Красот первозданных волшебная ширь разлита кругом.

Тут бабушка в люльке качала меня, на воле я рос,
На шапках вершин – ледяная броня, наброшен был мост
И снежные бурки на спины высот… Глядеть сверху – страх.
Могущество гор невозможно забыть у нас в Масаллах!

Накидку туманную сбросил с себя Домбалова кряж,
Окутал в ущельях охотников мрак – вернулись в Сыгдаш.
Столетние молодость вновь обретут и силу свою,
Сок жизни впитала природа сполна в курортном раю.

Касается солнце моей стороны у гор Талыша,
Я сам сыгдашинец, в селенье родном ликует душа!
Святилищ в избытке достойных, но главное тут – Мурсали,
Чтят жители гор в Масаллах предания славной земли.

# БРАТУ

*Муршуду Амирову,*
*проживающему в Екатеринбурге*

Вряд ли молодость сможешь обратно вернуть,
Нет для грусти причин – а, Муршуд!
Украшает пусть счастье твой жизненный путь,
Словно зиму – цветок, – а, Муршуд!

Как забыть нам долины, где маков огни
Подожгли буйных трав изумруд.
Дорог ты землякам, и, конечно, они
Славят имя твоё – а, Муршуд!

Снятся горы родные в слезах родников,
На земле отчей праведный труд,
Солнце в небе высоком среди облаков.
Возвращайся скорей – а, Муршуд!

Стойко горе своё пережил неспроста,
И Легендой по праву зовут.
О деяньях твоих не смолкают уста,
Для людей ты пример – а, Муршуд!



СОДЕРЖАНИЕ

Oglum 3
Xəbərsiz 4
Olaydim 5
Bir gün 6
Ana 8
Ağlayacağam 10
Söylə, nədir? 12
Sənsiz 13
O günlər 15
Dərdə salibdir 16
Baci qayğisi 17
Şair olmaz 18
Çəkmişəm 19
Masallidadir 20
A mürşüd! 21
Mələk 22
Getsin 23
Səni xatirlayiram 24
Gəlmişəm 25
O gündən bəri 26
Dunya 27
Anama 28
Sənsiz növrağa 29
Vəfasizim 30
Мой ангел 31
Несбывшаяся мечта 32
«Создания Божьи на свете не вечны…» 33
Покинувшей меня 34
В объятиях твоих позволь мне умереть! 35
Маме 36
На фото милое смотрю… 38
Дом сердца моего 40
Поэтом не будет! 41
Вспоминаю тебя 42
Как жить без тебя 43
Вернутся ли назад… 45
О счастье 47
Унесённые буквы 48
Букета одного две половины 49
Сыну 50
Во сне 51
Опечаленное сердце 52
Цветок матерей 53
Дунья 54
Четыре весны 55
Сестре 56
В Масаллах 57
Брату 58

*Литературно-художественное издание*

**Исраил Ибрагимов**

# УЗОРЫ ЛЮБВИ
# SEVGİ NAXIŞLARI

**Перевод с азербайджанского Виталия Молчанова**

*Корректор* –
*Дизайн-макет* – Татьяна Таранова

Подписано в печать г.
Формат 84x108/32. Бумага офсетная
Гарнитура Garamond Premier Pro.
Усл. п. л. . Тираж 300 экз.
Заказ №

ИПО «У Никитских ворот»
121069, г. Москва
ул. Большая Никитская, д. 50/5
тел.: (495) 690–67–19
www.uniki.ru



**Ибрагимов Исраил Ибрагим оглы** родился 2 марта 1971 года в с. Сыгдаш Масаллинского района АзССР. Окончил с отличием Сыгдашскую среднюю школу, Инженерно-технический университет в г. Баку, Российско-германский институт экономики и культуры по социально-правовой специальности. С 1991 года проживает в г. Оренбурге.

Поэзией увлекается с юных лет. Стихотворения Ибрагимова Исраила были опубликованы в журнале «Улдуз» (Баку), в альманахах «Гостиный Двор», «Башня» (Оренбург), в литературном журнале для семейного чтения «День и Ночь» (Красноярск).